Kim doğru yola dəvət edərsə, o kəs, arxasınca gedənlərin savabı qədər savab qazanar və bu onların savablarından heç nəyi əksiltməz

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Kim doğru yola dəvət edərsə, o kəs, arxasınca gedənlərin savabı qədər savab qazanar və bu onların savablarından heç nəyi əksiltməz, kim də zəlalətə dəvət edərsə, onun arxasınca gedənlərin günahı qədər günah qazanar və bu onların günahından heç nəyi əksiltməz".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) açıq-aydın bildirmişdir ki, kim insanları söz və ya əməllə, haqq və xeyir yoluna irşad etsə, yönəltsə və təşviq etsə, mükafatı, ona tabe olan kəslərin mükafatı qədər olacaq və buna görə ona tabe olanların mükafatından heç bir şey azalmayacaq. Kim insanları söz və ya əməllə, batil yola, günah, şərr və ya haram bir işə yönəltsə, ona tabe olanların günahı qədər günah qazanacaq və ona tabe olanların günahlarından da heçnə əksilməyəcək.

http://www.sunnah.global/hadeeth/az/show/3373